Bülleten No: 17 / may 2014

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
Məlumat Hesablama Mərkəzi

# Elektron Hökumət Portalı

your gateway to all public services

www.e-gov.az

MAY 2014

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə




ISO 9001 SGS SYSTEM CERTIFICATION

UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072, № 12, maddə 1247; 2012, № 1, maddə 40, № 3, maddə 256, № 10, maddə 1016, № 11, maddə 1207; 2013, № 6, maddələr 745, 757, № 7, maddə 868, № 8, maddələr 1005, 1018, № 11, maddə 1466, № 12, maddə 1639; 2014, № 1, maddə 69; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 fevral tarixli 36 nömrəli, 14 fevral tarixli 46 nömrəli, 21 fevral tarixli 52 nömrəli, 12 mart tarixli 74 nömrəli və 19 mart tarixli 86 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"na aşağıdakı məzmunda 24.16-cı-24.22-ci bəndlər əlavə edilsin:

| | |
|---|---|
| **24.16.** | Dövlət əmlakının icarəyə verilməsi müqavilələri üzrə icarə haqqı borcu barədə məlumatın verilməsi |
| **24.17.** | Servitutun dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu |
| **24.18.** | Servitutun dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu |
| **24.19.** | Daşınmaz əmlakla bağlı uzufruktun dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu |
| **24.20.** | Daşınmaz əmlakla bağlı uzufruktun dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu |
| **24.21.** | Məhv olmuş daşınmaz əmlakın və onun üzərindəki hüquqların dövlət qeydiyyatının ləğvi |
| **24.22.** | Daşınmaz əmlak obyekti barədə daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi (daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi istisna olmaqla) |

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**
*Bakı şəhəri, 16 aprel 2014-cü il*
*№ 105*

# Mobil cihazların qeydiyyatının elektron müraciət vasitəsilə aparılması mümkün oldu

**Azərbaycan Nazirlər Kabineti "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"nda dəyişikliklərin edilməsi haqda qərar qəbul edib.**

Sənəd hüquqi və ya fiziki şəxslərin mobil telefon cihazlarından MCQS tərəfindən mobil (sellular) telekommunikasiya operatorları ilə birgə təşkil edilmiş vahid nömrəyə qısa mesaj (SMS) göndərməklə mobil cihazların "IMEI" nömrələrinin mövcud statusu barədə məlumatın alınmasını nəzərdə tutur.

Bununla yanaşı, şəxsi istifadə məqsədi ilə ölkə ərazisinə gətirilən mobil cihazın qeydiyyata alınması şəxsin istəyinə uyğun olaraq həm elektron, həm də yazılı müraciət etmə üsulları ilə aparılır. Elektron müraciət etmə üsulu "Elektron hökumət" portalına daxil olaraq müvafiq avtorizasiya prosesini keçməklə mobil cihaza dair məlumtların daxil edilməsi yolu ilə yerinə yetirilir.



www.e-gov.az

# Elektron imza xidmətləri üçün yeni tariflər müəyyənləşdirilib

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi əhalinin elektron imza xidmətlərindən istifadəsinin genişləndirilməsi və bu xidmətlərə əlçatanlığın təmin edilməsi istiqamətində prosedurların təkmilləşdirilməsini və sadələşdirilməsini davam etdirir.












Bununla bağlı aparılan tədbirlərin bir istiqaməti kimi, elektron imza xidmətləri üçün yeni tariflər müəyyənləşdirilib. Yeni tariflərə əsasən, elektron imzanın qiyməti əhali üçün 18 manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün 36 manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər üçün 72 manat təyin edilib. Bu tariflərə 3 illik elektron imza xidmətləri, elektron imza daşıyıcısı olan smart kart və 3 il ərzində vaxt göstəricilərinin qeyd olunması xidmətindən limitsiz istifadə daxildir.

Dövlət strukturları üçün elektron imzanın qiyməti isə 80 manat təşkil edir. Bu tarifə elektron imza üçün 3 illik tam xidmətlərlə yanaşı, kart oxuyucusu (cardreader) da daxildir.

Qeyd edək ki, elektron imza müasir dövrün tələbləri ilə ayaqlaşmaq istəyənlər üçün effektiv həll hesab edilir və elektron imza - elektron dünyada şəxsiyyəti müəyyənləşdirmə vasitəsidir. Azərbaycan Respublikasının qanunlarına əsasən, elektron imza ilə imzalanmış elektron sənədlər əl imzası ilə imzalanmış və möhürlənmiş sənədlərə bərabər tutulur. Elektron imzanın üstünlüklərinə vaxta qənaət, məxfilik, rahatlıq, bütünlük, tanınma, inkaredilməzlik (məsuliyyətdən yayınmanın mümkünsüzlüyü), işgüzar münasibətlərin və əlaqələrin tamamilə elektron formata keçirilməsi daxildir.

Elektron imzanı Azərbaycanın bütün ərazisində, o cümlədən Naxçıvan Muxtar Respublikasında əldə etmək olar.

RYTN MHM tərəfindən elektron imzanın tətbiq sahələrinin daha da genişləndirilməsi üçün müxtəlif istifadəçi əlavələrinin hazırlanması istiqamətində də işlər uğurla davam etdirilir.

Artıq bir müddətdir ki, "www.e-imza" saytında, e-imzada istifadə menyusunda "E-şifrləyici" proqram əlavəsi yerləşdirilmişdir. İstifadəçilər bu proqramı öz kompüterlərinə yükləməklə məlumatların açıq açar infrastrukturu vasitəsilə şifrlənməsini və deşifrlənməsini həyata keçirə bilərlər.

Həmçinin, məlumatların veb üzərindən onlayn imzalanması da artıq öz həllini tapmışdır. Yaxın günlərdə bu servisin beta versiyası saytımızda və "Elektron hökumət" portalında yerləşdiriləcəkdir.

Hər iki texnoloji yenilik birbaşa praktiki tətbiqinə ehtiyac duyulan servislərdir. Bu yeniliklər bilavasitə kommersiya yönümlü olduqlarından, fərdi sahibkarlığın inkişafında, bankçılıq sahələrində e-imzanın praktik istifadəsinə yeni bir təkan vermiş olacaqdır.

# “Elektron hökumət” portalının xidmətlərinə müraciət edən 1 milyonuncu istifadəçi mükafatlandırılıb




**Aprel ayının ilk ongünlüyündə "Elektron hökumət" portalının təqdim etdiyi elektron xidmətlərə olan müraciətlərin sayı 1 milyona çatmışdır.**

Portala müraciət etmiş milyonuncu şəxs Şəki rayonunun sakini Nəbi Məmməd oğlu Hüseynbəyli olmuşdur. Kifayət qədər yüksək göstərici sayılan bu fakt həmçinin "Elektron hökumət" portalının təqdim etdiyi elektron xidmətlərdən istifadə edənlərin sayının nəinki paytaxtda, ümumilikdə ölkə üzrə, o cümlədən regionlarda da artdığını, bu xidmətlərdən istifadənin əlçatanlığının təmin edildiyini göstərir.

Bu əlamətdar hadisə münasibətilə portala milyonuncu müraciət edən Nəbi Hüseynbəylinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən mükafatlandırılıb.

# Torpaqların qeydiyyatı üzrə texniki tapşırıq sistemi vasitəsilə “Elektron hökumət” portalı ilə onlayn əlaqə yaradılacaq

**Avropa standartlarına uyğun olaraq hazırlanmış torpaqların qeydiyyatı üzrə texniki tapşırıq sistemi vasitəsilə gələcəkdə ölkəmizdə fəaliyyət göstərən “Elektron hökumət” portalı ilə onlayn əlaqə yaradılması nəzərdə tutulur ki, bu da vətəndaşların internet vasitəsilə sözügedən sistemə daxil olmaqla torpaq sahələri barədə tələb olunan torpaq kadastr məlumatlarını əldə etmək imkanına şərait yaradacaq.**

Bu barədə“Tvinninq” layihəsi çərçivəsində “Torpağın Avropa İttifaqının qiymətləndirmə standartlarına uyğun olaraq bonitirovkası və iqtisadi qiymətləndirilməsi qaydalarının təkmilləşdirilməsi ilə dövlət torpaq kadastrı məlumatlarının müasir qeydiyyatı sisteminin yaradılması sahəsində Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə dəstək” layihəsinin bağlanış mərasimində DTXK-nın sədri Qərib Məmmədov deyib.

Onun sözlərinə görə, sistemin bütün regionlara 2014-cü ilin iyul ayına qədər tətbiq olunacağı nəzərdə tutulub. Torpaqların qeydiyyatının aparılması üçün yaradılmış 10 moduldan ibarət olan sistemin artıq 6 modulu fəaliyyət göstərməkdədir. Digər modullar isə test rejimində yoxlandıqdan sonra fəaliyyət göstərəcək.

Komitə sədri həmçinin qeyd edib ki, “Tvinninq” layihəsi ilə paralel olaraq Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi çərçivəsində Dünya Bankının vəsaiti hesabına Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi üçün müasir dövrün tələblərinə cavab verən server və şəbəkə avadanlıqları alınıb və quraşdırılıb. Eyni zamanda məlumatların dinamik idarə olunması, interaktiv elektron xəritələrin daima yenilənməsi üçün Xüsusi Dövlət Mühafizə Xidmətinin fiber-optik xətti vasitəsilə 10 Regional Torpaq Kadastr Mərkəzi ilə onlayn əlaqə qurulub, digərlərində isə işlər davam etdirilməkdədir.

# Daha bir dövlət qurumu “Elektron Hökumət” portalına qoşuldu

Azərbaycan Baş Prokurorluğu “Onlayn müraciət” adlı ilk elektron xidmətini “Elektron Hökumət” portalına inteqrasiya edib. İstifadəçilər xidmət vasitəsilə istifadəçilər təklif, şikayət və ya ərizə formasında olan müraciətlərini elektron qaydada asanlıqla Baş Prokurorluğa ünvanlaya bilərlər.Sorğu qəbul olunduqdan sonra istifadəçinin elektron ünvanına müraciəti ilə əlaqədar müvafiq cavab məktubu göndərilir.

www.e-gov.az

# Tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası informasiya sistemi yaradılıb

**Bundan sonra əlilliklə bağlı müraciətlərin edilməsində süni maneələrə rast gəlinməyəcək. Belə ki, artıq əlilliyin müəyyən olunması sistemi və əlillik təyinatları ilə bağlı aidiyyəti təşkilatlar arasında məlumat mübadiləsi tam avtomatlaşdırılır.**

Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası informasiya sisteminin qurulması üzrə işlər artıq başa çatdırılıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, ƏƏSMN-in yerli Tibbi-sosial ekspert komissiyalarının (TSEK) yeni proqram təminatı ilə işləmək bacarıqlarına malik olmaları üçün Bakı şəhərində və respublikanın bölgələrində treyninqlərə başlanılıb.

Hazırda pilot işləri aparılan yeni proqram təminatı əlillik qrupları almaq üçün müraciət edən vətəndaşların xəstəlik vəziyyətləri, müayinələrin nəticələri barədə məlumatların TSEK-lər tərəfindən elektron yolla informasiya sisteminə daxil edilməsinə şərait yaradacaq. Vətəndaşların əlillik vəziyyətinin müəyyən olunması üçün göndəriş formalarının (88 nömrəli forma) da səhiyyə müəssisələri tərəfindən elektron məlumat mübadiləsi sistemi vasitəsilə TSEK-lərə göndərilməsi ilə bağlı tədbirlər görülür.

Yeni yaradılan informasiya sistemi əlillik təyinatı barədə aidiyyəti dövlət orqanına təqdim olunmaq üçün vətəndaşlara kağız arayışların verilməsi praktikasına da son qoyacaq.



Belə ki, əlillik təyin olunması barədə müvafiq məlumatların TSEK-lər tərəfindən aidiyyəti orqanlara elektron yolla və operativ şəkildə göndərilməsi təmin olunacaq.

Əlilliyin müəyyən olunması sistemi və əlillik təyinatları ilə bağlı aidiyyəti təşkilatlar arasında məlumat mübadiləsinin tam avtomatlaşdırılması bu sahədə neqativ hallara şərait yaradan məmur-vətəndaş münasibətlərinin aradan qalxmasına və şəffaflığın təmin olunmasına, eyni zamanda vətəndaşlara göstərilən tibbi-sosial ekspertiza xidmətinin müasir tələblərə uyğun qurulmasına xidmət edir.

Qeyd olunan treninqlər yekunlaşdıqdan sonra yeni sistemin tətbiqinə başlanacaq.

# DSMF-də fərdi uçot sistemində onlayn qeydiyyatın ilkin yekunları ilə bağlı brifinq keçirilib

2014-cü ilin ilin yanvar ayından tətbiq olunan "Sığortaolunanın onlayn uçota alınması" xidməti ilə bağlı ictimaiyyətin geniş marağı və daxil olmuş çoxsaylı müraciətlər nəzərə alınaraq, vətəndaşların bu elektron xidmət barədə əlavə məlumatlandırılması məqsədilə aprelin 18-də Dövlət Sosial Müdafiə Fondunda (DSMF) brifinq keçirilib. Brifinqdə DSMF-nin Fərdi uçotun təşkili şöbəsinin müdiri Nigar Pənahova bildirib ki, informasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində DSMF tərəfindən əhaliyə təqdim olunan elektron xidmətlərin sayı 19-a çatdırılıb. "Elektron hökumət" portalının statistikasına əsasən DSMF-nin təqdim etdiyi elektron xidmətlər əhalinin ən çox müraciət etdiyi elektron xidmətlərdəndir. Belə elektron xidmətlərdən biri ölkə vətəndaşları arasında böyük diqqət və marağa səbəb olmuş "Sığortaolunanın onlayn uçota alınması" xidmətidir. Bu xidmət vasitəsilə vətəndaşların fərdi uçot sistemində uçota alınaraq sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesi elektron qaydada həyata keçirilir. 2014-cü ilin yanvar ayından hazıradək real vaxt rejimində onlayn şəkildə təqdim olunmuş elektron müraciət əsasında 10.200 fərdi şəxsi hesab açılaraq sosial sığorta şəhadətnaməsi rəsmiləşdirilmişdir.

"Sığortaolunanın onlayn uçota alınması" xidməti sığortaedənlərlə DSMF orqanları arasında münasibətlərin sadələşdirilməsinə imkan yaradır və sığorta-pensiya sistemində şəffaflığın daha da artırılmasını təmin edir Elektron xidmətdən istifadə üçün sığortaedən həm DSMF-nin saytı, həm "Elektron hökumət" portalı vasitəsi ilə "Sığortaolunanın onlayn uçota alınması" elektron xidmətini seçir və müvafiq xanaları dolduraraq sorğu edir. Elektron formada göndərilmiş ərizə DSMF orqanı tərəfindən qəbul edilir və bu barədə sığortaedənə elektron təsdiqetmə bildirişi göndərilir. Sığortaedən tərəfindən elektron formada göndərilmiş elektron ərizə formalarına DSMF tərəfindən baxılır. Təqdim edilmiş elektron ərizə formaları yoxlandıqdan sonra sığortaolunan üçün fərdi şəxsi hesab açılır və ona sosial sığorta nömrəsi əks olunan dövlət sosial sığorta şəhadətnaməsi 1 ay ərzində rəsmiləşdirilir. Eyni zamanda, əgər vətəndaş sığortaolunan kimi fərdi uçot sistemində qeydiyyatdadırsa bu zaman imtina haqqında informasiya əks olunmaqla sığortaolunanın nə zaman və hansı sığortaedən tərəfindən uçota alınması ilə bağlı xüsusi pəncərə açılır.

"Sığortaolunanın onlayn uçota alınması" elektron xidməti interaktivdir, xidmətdən istifadə ödənişsizdir. Elektron xidmətin göstərilməsi üçün hər hansı sənəd tələb olunmur.

# Regionlarda "Hesabatların elektron qəbulu" mövzusunda regional təqdimat

**Dövlət Sosial Müdafiə Fondu (DSMF) aprelin 15-də Gəncədə "Hesabatların elektron qəbulu" mövzusunda regional təqdimat keçirib. Tədbirdə Gəncə şəhərindən və Azərbaycanın 9 rayonundan olan sığortaedənlər, sığortaolunanlar və pensiyaçılar iştirak edib. Gəncə şəhərini və Azərbaycanın qərb bölgəsini- Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Kəlbəcər, Göygöl, Samux rayonlarını təmsil edən sığortaedənlər, sığortaolunanlar və pensiyaçıların qatıldığı təqdimat mərasimində slaydlar vasitəsilə Fondun əhaliyə göstərdiyi elektron xidmətlər barədə geniş məlumat verilib.**

Aprelin 29-da isə Lənkəranda keçirilmiş "DSMF-nin elektron xidmətləri" adlı regional təqdimat mərasimində Lənkəran, Astara, Lerik, Yardımlı, Masallı, Cəlilabad və Biləsuvar rayonlarından olan sığorta ödəyiciləri və pensiyaçılar iştirak etmişlər.

"Elektron hökümət" portalının statistikasına əsasən DSMF-nin əhaliyə göstərdiyi elektron xidmətlər qısa müddət ərzində ən çox istifadə olunan xidmətlər sırasında ilk yerləri tutub. Həmin xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi sahəsində ardıcıl işlər görülür. Bunlardan biri də elektron hesabat xidməti üzrədir. Elektron hesabat xidmətindən istifadə qaydaları və xüsusi proqram təminatı DSMF-nin www.sspf.gov.az; www.e-sspf.gov.az saytlarında yerləşdirilib. "Məcburi dövlət sosial sığortası üzrə hesabatların (B1, B2) və məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatın (B3) elektron formada qəbulu" adlı proqramda sığortaedənlərə təklif olunan elektron xidmətlər, onlardan istifadə qaydaları öz əksini tapıb. Bura sığortaedənin DSMF orqanlarında məcburi dövlət sosial sığortası üzrə rüblük (illik) hesabatı"nın tərtibi üzrə proqram təminatından istifadə, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin DSMF orqanlarında məcburi dövlət sosial sığortası üzrə rüblük (illik) hesabatı"nın tərtibi üzrə proqram təminatından istifadə, məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumat"ın tərtibi üzrə proqram təminatından istifadə, hesabatları və məlumatları DSMF orqanlarına elektron formada təqdim etmə daxildir. Hazırda bütün ölkə üzrə iri və orta sahibkarlardan hesabatlar tam elektron qaydada qəbul edilir. Kiçik ödəniş edən, mühasibatlığı avtomatlaşdırılmamış torpaq pay mülkiyyətçiləri, fərdi sahibkarıq fəaliyyəti ilə məşğul olan şəxslər isə DSMF-nin yerli şöbələrində yaradılmış "Yardım masaları"nın xidmətindən yararlanmaqla öz hesabatlarını elektron formada təqdim etmək imkanı qazanırlar. "Yardım masaları"nın fəaliyyətinin genişləndirilməsi ilə bağlı kiçik ödəniş edən sığorta edənlərin elektron hesabatlarının sayının daha da artacağı proqnozlaşdırılır.

Təqdimat zamanı bildirilib ki, Fondun internet səhifəsində yaradılmış müştəri xidmətləri sisteminə istənilən vətəndaş daxil olaraq öz fərdi hesabı barədə məlumat almaq, eləcə də pensiya kalkulyatoru vasitəsilə öz pensiyasını hesablama imkanı əldə edir.

# Azərbaycanda mərkəzləşdirilmiş virtual tədris platforması yaradılacaq

**Azərbaycanda mərkəzləşdirilmiş virtual tədris platformasının yaradılması və təhsilin idarə olunması sisteminin inkişaf etdirilməsi planlaşdırılır.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da əksini tapıb. Milli Strategiyaya əsasən, milli təhsil şəbəkəsinin inkişaf etdirilməsi və bütün ümumi təhsil müəssisələrinin etibarlı, təhlükəsiz genişzolaqlı şəbəkəyə qoşulmasının təmin olunması, təhsilin resurs mərkəzinin və təhsil prosesini dəstəkləyən elektron tədris vasitələrinin inkişaf etdirilməsi, eləcə də bütün təhsil pillələri üçün informatikanın tədrisinin keyfiyyətinin artırılması və dərs vəsaitlərinin texnoloji inkişafa uyğun müasirləşdirilməsi də e-təhsil sahəsində prioritetlər sırasındadır.



Eyni zamanda, təhsildə İKT-nin səmərəli istifadəsinin təşkili, İKT-nin tətbiqi ilə yeni təhsil modellərinin, o cümlədən distant təhsilin həyata keçirilməsi, vahid milli təhsil portalının fəaliyyətinin genişləndirilməsi və elektron resurslarla zənginləşdirilməsi, İKT sahəsində fasiləsiz professional hazırlıq sisteminin təkmilləşdirilməsi həyata keçiriləcək tədbirlərə daxildir.

www.e-gov.az

# Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi iş yeri haqda arayışların təqdim olunmasını asanlaşdıracaq

Artıq bundan sonra işçi vətəndaşların bu və ya digər məsələlərlə əlaqədar iş yerləri və ya əməkhaqları barədə arayış təqdim etmələri işi xeyli asanlaşacaq. Bu prosedurun sadələşməsi əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən elektron informasiya sisteminin tətbiqi nəticəsində mümkün olacaq.




Belə ki, hər hansı vətəndaşla bağlanan əmək müqaviləsi barədə bildirişdə işçi ilə işəgötürən arasında əmək münasibətlərinin bütün şərtləri ilə yanaşı, müəyyən olunan əməkhaqqı barədə məlumat da əksini tapacaq. Vətəndaş bu və ya digər təşkilat tərəfindən onun əməkhaqqı barədə məlumat istənildiyi zaman onunla bağlanmış və elektron informasiya sistemində mövcud olan əmək müqaviləsi bildirişini çap edərək həmin təşkilata təqdim edəcək.

Eyni zamanda, qeyd olunan bildiriş formasını vətəndaş həmin təşkilatın e-ünvanına da göndərə biləcək. Nazirlikdən bildirilib ki, elektron informasiya sisteminin proqram təminatının hazırlanması işləri artıq yekunlaşıb və müvafiq sınaq işləri aparılmaqla sistemin təkmilləşdirilməsi işləri aparılır.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi və qeydiyyata alınması prosedurlarını əks etdirən müvafiq qaydalar təsdiq edildikdən sonra elektron informasiya sisteminin "Elektron hökumət" portalı üzərindən tətbiqinə başlanacaq. Həmçinin nazirlik Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"ın təsdiq edilməsi haqqında" qərar layihəsinin hazırlanması işini başa çatdırıb.

Əmək müqaviləsi bildirişlərinin elektron şəkildə qeydiyyata alınması üçün elektron informasiya sistemi iyulun 1-dən tətbiq olunacaq.

**Əmək Məcəlləsində dəyişikliklər edilməsi ilə bağlı qanunun tətbiqi barədə Azərbaycan Prezidentinin 2014-cü il 3 fevral tarixli Fərmanının icrası ilə əlaqədar, əmək müqaviləsi bildirişlərinin elektron şəkildə qeydiyyata alınması üçün elektron informasiya sistemi cari il iyulun 1-dən tətbiq olunacaq.**

Bu sistem bizə iş yerlərində əməyin mühafizəsi məsələlərinə də daha güclü nəzarət etmək imkanı verəcək. Bu fikri əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov 28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən keçirilən konfransda bildirib. Nazir iş yerlərinin əməyin mühafizəsi normalarına uyğunluğunun müasir üsullarla ekspertizası üçün xüsusi laboratoriyaların yaradılmasına başlandığını bildirib.

"Bakıda Dövlət Əmək Müfəttişliyi Xidmətinin Mərkəzi Laboratoriyasının tikintisi nəzərdə tutulur. Digər bölgələrdə də belə laboratoriyalar yaradıla bilər. Onlarda olan ən müasir avadanlıqlar istehsal sahələrində işçilərin sağlamlığına mənfi təsir göstərən zərərli fiziki-kimyəvi-bioloji amilləri öyrənməyə imkan verəcək".

# Oğuzda gənclər İKT üzrə maarifləndirilib

**Oğuz rayonunda Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Gənclərə İKT biliklərinin aşılanması" layihəsi həyata keçirilib. Fonddan verilən məlumata görə, layihənin məqsədi Oğuz rayonunda yerləşən 2 orta təhsil müəssisələrindən olan 14-17 yaş arası gənclərin İKT sahəsində bilik, bacarıq və qabiliyyətlərinin artırılması olub:**

Layihənin icrası zamanı əvvəlcədən müəyyənləşdirilmiş 2 orta məktəbdən olan 14-17 yaş arası gənclərdən ibarət qruplar formalaşdırılıb, onlara İKT vasitələri və onların yaranmasının qısa tarixi, İKT Azərbaycanda, mövcud vəziyyət və perspektivlər, İKT-"elektron hökumət", sayt, bloq və "Twitter", İKT-elektron poçt və ondan istifadə, İKT-elektron axtarış maşınları, İKT və gələcək karyera imkanları, İKT və biznes, İKT və təhsil və digər mövzularda geniş məlumatlar verilib.

Layihə nəticəsində 90 nəfər gənc təlimlər vasitəsilə məlumatlandırılıb.

# «Elektron məhkəmə» ədalət mühakiməsinə vətəndaş etimadının artmasına xidmət edir



Ədliyyə naziri,
Məhkəmə-Hüquq Şurasının sədri
Fikrət Məmmədov 09 Aprel 2014 tarixdə
"Azərbaycan" qəzetinə müsahibə vermişdir.
Müsahibədən çıxarışları təqdim edirik.

*Ötən ay mətbuatda Məhkəmə-Hüquq Şurasının geniş iclasının keçirilməsi, ölkə Prezidenti İlham Əliyevin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli sərəncamından irəli gələn məsələlərin müzakirə edilməsi barədə məlumat yayılmışdı...*

**- Fikrət müəllim, dövlət başçısının "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında sərəncamını şərtləndirən amillər və onun məhkəmə fəaliyyətində hansı dəyişikliklərə səbəb olacağı barədə fikirlərinizi bölüşmək istərdik.**

- Dövlət başçısı İlham Əliyevin bilavasitə tapşırıqları ilə əhaliyə səmərəli xidmət göstərilməsi, bu zaman korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və vətəndaş məmnunluğunun artırılması üzrə məqsədyönlü strategiya həyata keçirilir.

Müasir informasiya texnologiyalarının inkişafı üzrə Dövlət proqramlarının qəbulu (Elektron Azərbaycan), ölkə Prezidentinin 23 may 2011-ci il tarixli fərmanı ilə əhaliyə elektron xidmətlərin göstərilməsinə başlanması və onun günbəgün genişləndirilməsi, korrupsiya ilə mübarizədə ölkə Prezidentinin təşəbbüsü ilə yaradılaraq Azərbaycanın milli brendinə çevrilmiş və əhalinin böyük etimadını qazanmış "ASAN" xidmətin təsis edilməsi vətəndaş-məmur münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan vermişdir.

Bu baxımdan məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən köklü islahatlar çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müxtəlif texnoloji yeniliklərin tətbiqi obyektiv zərurətə çevrilmişdir. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli sərəncam isə bu sahədə strateji prioritetləri müəyyən etməklə inqilabi təkamülün əsasını qoymuşdur.

Belə ki, "Elektron məhkəmə" informasiya sisteminin yaradılması məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edəcəkdir.

Təsəvvür edin, bu sistemin işləməsi ilə insanlar məhkəməyə gəlmədən elektron formada müraciət edə biləcək, proses barədə məlumatları elektron daşıyıcıda dərhal alacaq, məhkəmə prosesləri audio-video və digər texniki vasitələrlə qeydə alınacaq, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanı yaradılacaq, proses iştirakçıları məhkəmənin gedişi, qərarlar və icra vəziyyəti və s. məlumatları əks etdirən elektron "şəxsi kabinetə" malik olacaq, işlərin elektron dövriyəsi təşkil ediləcəkdir.

Bu sahədə beynəlxalq təcrübəyə müraciət etdikdə maraqlı məqamlar görünür. Məsələn, Sloveniyada kiçik məbləğli iddialar üzrə elektron məhkəmə və icra sisteminin tətbiq olunması ilə 44 məhkəmədə 350 hakim və məhkəmə işçisi tərəfindən görülən iş hazırda cəmi 1 məhkəmədə 4 hakim və 62 məhkəmə işçisi tərəfindən həyata keçirilir. Avstriya, Türkiyə, Sinqapur və digər dövlətlərdə tətbiq edilən təcrübə, o cümlədən iddiaların elektron formada təqdimi və qeydiyyatı, tərəflərin SMS və digər elektron üsullarla məlumatlandırılması, müxtəlif məlumat bazaları ilə inteqrasiyanın aparılması diqqəti xüsusi cəlb edir. Lakin o da qeyd olunmalıdır ki, Avropa məkanında cəmi 4 dövlətin məhkəmə sistemində (Avstriya, Estoniya, Malta və Portuqaliya) müasir İKT-lərin tam tətbiq olunduğunu demək olar.

Onu da bildirmək istərdim ki, "Elektron məhkəmə" informasiya sisteminin yaradılması əhəmiyyətli olduğu qədər də mürəkkəb və çoxmərhələli prosesdir.

Bu sahədə qarşıda duran vəzifələr Ədliyyə Nazirliyinin geniş kollegiyasında və Məhkəmə-Hüquq Şurasının sonuncu iclasında müzakirə edilmiş, əhatəli tədbirlər planının hazırlanması, zəruri infrastrukturun formalaşdırılması, müasir İKT-lərin daha geniş tətbiqi, müvafiq qanunvericilik layihələrinin hazırlanması və s. məsələlər üzrə konkret tapşırıqlar verilmişdir.

**- Bildiyimizə görə məhkəmə infrastrukturunun müasirləşdirilməsi və qabaqcıl İKT-lərin tətbiqi üzrə genişmiqyaslı işlər görülüb. Bunları "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üçün hazırlıq kimi qəbul etmək olarmı?**

www.e-gov.az

- Məhkəmə sisteminin və infrastrukturun dinamik inkişafının təmini, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi məsələləri ölkə Prezidentinin hələ 2009-cu ildə təsdiq etdiyi Azərbaycan ədliyyəsinin inkişafına dair Dövlət Proqramında əks edilmiş, məhkəmələrdə İKT-lərin tətbiqinin sürətləndirilməsi, müasir tələblərə cavab verən iş prosesinin təşkili, vətəndaşların müraciət imkanlarının genişləndirilməsi ön plana çəkilmişdir.

Həmçinin açıq hökumətin təşviqinə və korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət planlarında da vətəndaşların müraciət imkanlarının asanlaşdırılması, insan haqlarının etibarlı təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Xüsusilə ölkə Prezidenti tərəfindən ötən ilin "İKT ili" elan olunması ilə əlaqədar bu sahədə tədbirlərimiz daha da genişləndirilmişdir.

Belə ki, son 2 ildə 4 yeni müasir İKT-lərlə tam təchiz olunmuş məhkəmə binası inşa edilib istifadəyə verilmişdir. Hazırda 10 məhkəmə üçün belə binaların tikintisi aparılır, habelə çoxsaylı yeni məhkəmə binası layihələndirilmiş, digər məhkəmə binalarının bu tələblərə uyğunlaşdırılması üçün intensiv işlərə başlanmışdır.

Yeni inşa olunan binalarda beynəlxalq tələblərə uyğun iş prosesinin təşkilinə, vətəndaşların müraciət imkanlarının asanlaşmasına xüsusi diqqət yetirilir, proseslərin audio-video yazısını aparan sistemlər, video-konfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi üçün zəruri infrastruktur yaradılır, müasir tipli təhlükəsizlik sistemləri quraşdırılır, vətəndaşlarla qeyri-prosessual münasibətlərin qarşısı alınır.

Həmçinin Dünya Bankı ilə birgə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi, habelə bir sıra ədliyyə və məhkəmə orqanlarında müasir İKT infrastrukturunun qurulması işi tamamlanmış, elektron sənəd dövriyyəsi, məhkəmə işlərinin elektron idarəetmə sistemləri, habelə proseslərin elektron qeydiyyatı sistemi hazırlanmışdır. Hazırda həmin sistemlər Bakı şəhəri Yasamal rayon məhkəməsində sınaq rejimində tətbiq olunur.

Təhlillər göstərir ki, məhkəmələrdə ən mühüm problemlərdən biri proses iştirakçılarının məhkəmə iclasının vaxtı və yeri barədə lazımi qaydada məlumatlandırılmamasıdır. Məhkəmə bildirişlərinin vaxtında çatmaması çəkişmə prinsipinə əməl edilməməsi, işlərə qanunla müəyyən edilmiş müddətdə baxılmaması ilə nəticələnir və haqlı şikayətlər doğurur. Bununla əlaqədar "Elektron-bildiriş" informasiya proqramı hazırlanmış və Bakı şəhərinin Xəzər rayon məhkəməsində sınaq rejimində tətbiqinə başlamışdır. Bu proqrama uyğun olaraq məhkəmə iclası barədə bildirişlər iş təyin olunan anda hakimin elektron imzası ilə təsdiq olunur və dərhal tərəflərin e-mail ünvanlarına və ya mobil telefonlarına SMS formasında göndərilir.

Eyni zamanda vətəndaşlara hüquqi xidmətin yaxşılaşdırılması məqsədilə məhkəmə sisteminin vahid internet portalı yaradılmışdır. Bu portal vasitəsilə vətəndaşlara məhkəmələrə onlayn rejimində müraciət etmək və cavab almaq, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək, qəbul günləri və s. barədə ətraflı məlumat almaq imkanı yaradılmışdır.

Məhkəmələrdə təyin edilən işlərin siyahısı və yekun məhkəmə aktları bazasının formalaşdırılaraq portalda yerləşdirilməsi, məhkəmə rüsumlarının elektron qaydada ödənilməsi nəzərdə tutulur. Bu sahədə ölkəmizin təcrübəsindən bir sıra dövlətlər yararlanmaq arzusunu bildirmiş, o cümlədən Xorvatiyada aparılan bu işdə Azərbaycan modelinə üstünlük verilmişdir.

Hesab edirik ki, bunlar "Elektron məhkəmə" informasiya sisteminin yaradılmasında təcrübi baxımdan əhəmiyyətli olacaqdır.

**- Səhv etmiriksə Şuranın sonuncu iclası da Yasamal rayon məhkəməsinin qeyd edilən tələblərə uyğun inşa olunmuş binasında keçirilmiş və həmin texnoloji yeniliklər nümayiş etdirilmişdi.**

- Elədir. Onu da qeyd edim ki, məsələnin əhəmiyyətini nəzərə alıb biz həmin iclası yeni tətbiq olunan müasir İKT-lərdən istifadə etməklə, video-konfrans üsulu ilə keçirdik. Və bu üsulla iclasımıza ölkənin bütün bölgələrindən 80-dək məhkəməni təmsil edən hakimlər canlı olaraq qoşuldu.

İctimaiyyət nümayəndələrinin də iştirak etdiyi həmin iclasda Yasamal rayon məhkəməsində sınaq rejimində tətbiq edilən texnoloji yeniliklər nümayiş etdirildi, hakimlərimiz və vətəndaş cəmiyyəti nümayəndələri maraqlı təkliflərlə çıxış etdilər.

. . . .

**“Azərbaycan" qəzeti**
*09 aprel 2014*
*http://www.azerbaijan-news.az/index.php?mod=3&id=36818*

# “Elektron hökumət” portalına 5 yeni elektron xidmət inteqrasiya edilib

**Dövlət Sosial Müdafiə Fondunun göstərdiyi daha 5 xidmət “Elektron hökumət” portalı üzərindən təqdim olunacaq.**

Portala əlavə olunan bu xidmətlərə “Dəfn üçün müavinətin ödənilməsi ilə bağlı müraciətin və sənədlərin qəbulu”, “Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”, **“Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”**, “Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi” və “Uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi” daxildir.

Dəfn üçün müavinətin ödənilməsi ilə bağlı müraciətin və sənədlərin qəbulu” xidməti vasitəsilə dəfn üçün müavinətin ödənilməsi ilə bağlı müraciət və qanunvericiliklə müəyyən edilmiş sənədlər elektron formada Dövlət Sosial Müdafiə Fondunun departamentləri, rayon şöbələri, Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondunun rayon şöbələrinə təqdim edilir.

Digər 4 xidmət vasitəsilə müvafiq haqq-hesab cədvəllərinin elektron formada doldurularaq Dövlət Sosial Müdafiə Fondunun departamentləri, rayon şöbələri, Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondunun rayon şöbələrinə təqdim olunması həyata keçirilir.

# "Elektron hökumət" portalına daxil olanların sayı 341 776 nəfərə çatdı



ŞƏKİL 1

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin aprel ayının 30-a qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 623 078 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 341 776 nəfər olub. Belə ki, 341 776 nəfər ümumən 623 078 dəfə portala baxıb və 1 084 452 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 2 216 920 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 02 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 55%-ni yeni istifadəçilər, 45%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün aprel ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 48 483 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 26 580 nəfər olub. Həmin şəxslər 190 154 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 102 127 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 01 saniyə təşkil edib. Aprel ayı ərzində portala müraciət edənlərin 58.4%-ni yeni istifadəçilər, 41.6%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 82844-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 327 ədəd olub.



ŞƏKİL 2

# Şamaxıda İqtisadiyyat və Sənaye Nazirliyinin göstərdiyi elektron xidmətlərə dair tədbir keçirilib

**İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərə dair vətəndaşların məlumatlandırılması məqsədilə Bakıda və ölkə regionlarında müxtəlif tədbirlər həyata keçirilir.**

"İqtisadiyyat və Sənaye Nazirliyinin göstərdiyi elektron xidmətlər" mövzusunda növbəti tədbir aprelin 17-də Şamaxı rayonunda keçirilmişdir. Tədbirdə aidiyyəti dövlət qurumlarının, Şamaxı və ətraf rayonların icra hakimiyyətlərinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələri və Dağlıq Şirvan iqtisadi rayonunda fəaliyyət göstərən 100-ə yaxın sahibkar iştirak etmişdir.

Tədbirdə İqtisadiyyat və Sənaye Nazirliyinin nümayəndələri tərəfindən Nazirliyin göstərdiyi elektron xidmətlər və onlardan istifadə qaydaları barədə məlumat verilmişdir. Nazirliyin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Zaur Qasımov çıxışında qeyd etmişdir ki, "Elektron Hökumət"ə dair Dövlət Proqramı çərçivəsində dövlət orqanlarında, o cümlədən İqtisadiyyat və Sənaye Nazirliyində də elektron xidmətlərin tətbiqi genişləndirilmişdir. Artıq Nazirlik tərəfindən əhaliyə göstərilən 28 xidmət online rejimdə həyata keçirilir. Bu isə modern və çevik idarəetmənin təmin edilməsi, işin səmərəli təşkili və vaxt itkisinin qarşısının alınması baxımından xüsusi əhəmiyyət kəsb edir.

www.e-gov.az

İştirakçılara məlumat verilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanına uyğun olaraq, İqtisadiyyat və Sənaye Nazirliyinin **www.economy.gov.az** internet saytında elektron xidmətlər bölməsi yaradılmışdır. Bölmədə Nazirlik tərəfindən müxtəlif fəaliyyət növlərinə lisenziyaların, malların mənşə və keyfiyyət sertifikatlarının verilməsi üçün tələb olunan sənədlərin siyahısı və müraciət edən şəxs tərəfindən doldurulmalı olan ərizənin elektron forması yerləşdirilmişdir. Bu bölmə sahibkarlara tələb olunan sənədləri elektron formada təqdim etməklə yanaşı, həmin xidmətlər üçün qanunvericiliklə müəyyən olunmuş dövlət rüsumlarının və xidmət haqlarının ödənişini on-line rejimində həyata keçirməyə imkan verir. Nazirlikdə kommersiya hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin elektron qeydiyyatı da aparılır. Eyni zamanda, cərimə və maliyyə sanksiyalarının on-line rejimində elektron ödənilməsi üçün imkanlar yaradılıb.

Daha sonra, Nazirlik tərəfindən vətəndaşlara elektron informasiya resursları vasitəsilə on-line rejimində qəbula yazılma, müraciətlərin on-line rejimdə qəbulu və cavablandırılması, Nazirliyin məsul işçiləri ilə canlı video əlaqənin qurulması, on-line rejimində sual-cavab və ən çox verilən suallar sistemi, dövlət proqramlarının icrası barədə informasiya sistemi (rəqəmsal xəritə), icazələrin elektron informasiya portalı - **www.icazeler.gov.az**, elektron ticarət portalı - **www.b2b.az**, nazirliyin press-relizlərinə elektron abunə yazılışı kimi informativ elektron xidmətlərlə bağlı məlumat vermişdir.

Nazirliyin əməkdaşları tərəfindən əyani olaraq lisenziyaların alınması, qrant müqavilələrinin qeydiyyatı, mənşə sertifikatının verilməsi, cərimələrin və maliyyə sanksiyalarının ödənilməsi, vətəndaşların qəbulu və s. xidmətlərdən on-line rejimində istifadə proseduru nümayiş etdirilmişdir.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndəsi elektron xidmətlərin tətbiqinin səmərəliliyin yüksəlməsinə, sahibkarlar və icra strukturları arasında əlaqələrin keyfiyyətinin yaxşılaşmasına, operativliyin və şəffaflığın təmin olunmasına imkan yaratdığını bildirmiş, elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən işlərin əhəmiyyətini qeyd etmişlər. Diqqətə çatdırılmışdır ki, İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər sahibkarlıq subyektlərinin fəaliyyətinin səmərəliliyinin artırılmasına, əlavə vaxt itkisinin qarşısının alınmasına əhəmiyyətli təsir göstərir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

## “Elektron hökumət” portalının “Facebook” səhifəsi istifadəçilərinin sayı 150 minə yaxınlaşır

**Azərbaycanda elektron xidmətlərdən istifadə genişləndikcə, bu sahədə əhalini maraqlandıran suallar da çoxluq təşkil edir. Əhalinin bu istiqamətdə maarifləndirilməsində mühüm rol oynayan internet resurslardan biri də “Elektron hökumət” portalının rəsmi “Facebook” səhifəsi (www.facebook.com/egov.az) hesab olunur. Təsadüfi deyil ki, istifadəçilər sözügedən səhifəyə böyük maraq göstərirlər.**

Hazırda səhifə istifadəçilərinin sayı 140 min nəfəri keçib. Bu “Facebook” səhifəsi ölkəmizdə “Elektron hökumət”in formalaşması istiqamətində görülən və nəzərdə tutulan işlər, layihələr haqda vətəndaşları maarifləndirmək, dövlət strukturlarının göstərdiyi elektron xidmətlərin hər bir vətəndaş üçün açıq olaraq portalda yerləşdirilməsini işıqlandırmaq, eyni zamanda ölkəmizdə informasiya cəmiyyəti quruculuğunda aparılan işləri təhlil və müzakirə etmək, istifadəçiləri keyfiyyətli elektron xidmətlərlə təmin etmək məqsədilə yaradılıb.

Qeyd edək ki, “Elektron hökumət” portalı üzərindən e-xidmətlərdən faydalanmaq istəyən istifadəçilər “Facebook” səhifəsinə daxil olaraq öz fikirlərini bildirir və paylaşırlar. Səhifəyə ünvanlanan suallar sosial tələb olaraq qəbul edilir, operativ şəkildə cavablandırılır, irəli sürülən təklif və rəylər mütəmadi olaraq nəzərə alınır.

Xatırladaq ki, “Elektron hökumət” portalı dövlət qurumları tərəfindən əhaliyə xidmət göstərilməsinin yeni üsuludur. Vətəndaşlara dövlət tərəfindən göstərilən xidmətlər burada elektron mühitdə təqdim edilir.




## Ölkəmizdə "Facebook"dan 1 milyon 360 min nəfər istifadə edir

**"Global Stats" statistika mərkəzi 2014-cü ilin yanvar-aprel ayları üzrə sosial şəbəkə istifadəçilərinin sayı ilə bağlı hesabat təqdim edib.**

Mərkəzin məlumatına görə, hazırda Azərbaycanda "Facebook" sosial şəbəkəsindən 1 milyon 360 min nəfər istifadə edir. Belə ki, 2014-cü ilin yanvar-aprel ayları ərzində Azərbaycanda "Facebook" istifadəçilərinin sayı 5,48% artıb.

Beləliklə, ötən ilin eyni dövrü ilə müqayisədə "Facebook" istifadəçilərinin sayında 3,15% artım qeydə alınıb.

Qeyd edək ki, "Facebook" Azərbaycanda ən populyar sosial şəbəkədir. Onun sosial media bazarında payı 68,63%-dir.

"Global Stats"ın statistikasına əsasən, yanvar-aprel aylarında ölkəmizdə "YouTube" videohostinqinin istifadəçilərinin sayı isə 30,54% artıb. Belə ki, "YouTube"-un Azərbaycanda bazar payı 8,59% təşkil edir.

# Elektron ipoteka kalkulyatoru istifadəyə verilib

**Azərbaycanda ipoteka kreditlərini hesablamaq üçün elektron kalkulyator yaradılıb. Sözügedən kalkulyator «Banker.az» portalı tərəfindən istifadəçilərə təqdim olunan kredit kalkulyatorlarından biridir. Onun vasitəsilə istifadəçilər ilkin ödənişi, ilkin faizi, aylıq ödənişi və sairəni tam, aydın hesablaya bilərlər.**

Kalkulyator vətəndaşlara müddətdən asılı olaraq ödənişlərinin necə dəyişdiyini görməyə köməklik göstərəcək. Qeyd edək ki, «Banker.az» portalında yerləşdirilmiş kalkulyator vasitəsilə istifadəçilər Azərbaycan İpoteka Fondunun (AİF) xətti ilə verilən ipoteka kreditləri və güzəştli ipoteka kreditləri üzrə hesablamalar apara bilər.

Ölkəmizdə İpoteka fondu xətti ilə ipoteka krediti verən banklar kifayət qədərdir. İpoteka krediti almaq istəyənlər də həmçinin. Əhalinin əksəriyyəti məhz AİF xətti ilə ipoteka kreditini almağa maraqlıdı. Portaldan bildirilib ki, bunun əsas səbəbi bankların öz hesabına verdikləri ipoteka krediti ilə müqayisədə AİF xətti ilə alınan ipoteka kreditlərinin illik faizinin kifayət qədər aşağı olmasıdır.

AİF xətti ilə alınan kreditlərdə göstəricilər bütün banklarda eynidi. Belə ki, İpoteka fondu hesabına verilən ipoteka kreditlərinin faiz dərəcəsi illik 8%-dir və bu krediti siz 25 ilə qədər götürə bilərsiniz, maksimal məbləğ isə 50 000 AZN.



Bundan əlavə hərbçilərə, qaçqınlara, əlil ailələrinə və s. şəxslərə İpoteka fondu xətti ilə güzəştli kredit də verilir ki, bu kredit 30 ilə qədər və illik 4% verilir.

Qeyd edək ki, AİF xətti ilə alınan kreditlər üzrə maksimum illik faiz dərəcəsi 8%-dir. Belə ki, əgər kalkulyatora 8%-dən yuxarı hər hansı faiz dərəcəsini əlavə etsəniz, kalkulyator sadəcə hesablamanı yerinə yetirməyəcək. Məsələn, istifadəçi 8% əvəzinə 15% yazsa, "hesabla" düyməsinə sıxsa, kalkulyator illik faizin səhv olduğunu bildirəcək və göstəriciləri hesablamayacaq.

# Rumıniyada ölkəmizdə həyata keçirilən "Elektron hökumət" quruculuğundan danışılıb

**Rumıniyanın paytaxtı Buxarest şəhərində Avropa İttifaqı Şərq Tərəfdaşlığı çərçivəsində "Demokratiya, yaxşı idarəçilik və sabitlik üzrə" 1-ci çoxtərəfli platforma nəzdində yaradılmış Dövlət Qulluğu İslahatları Panelinin növbəti işçi görüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan verilən məlumata görə, görüşdə komissiyanın nümayəndələri iştirak ediblər.İşçi görüşün məqsədi ötən 3 il ərzində Panel çərçivəsində görülmüş tədbirlərin və əldə edilmiş nəticələrin, eləcə də növbəti üç il üzrə fəaliyyət planının tərtib edilməsi üçün təkliflərin müzakirəsi olub.

Tədbirdə komissiyanın əməkdaşları keçən 3 il ərzində Dövlət Qulluğu İslahatları Panelinin 1-ci ("Dövlət qulluğu qanunvericiliyi və dövlət qulluğuna qəbul qaydaları") və 4-cü ("Elektron hökumət") sahələri üzrə Azərbaycanda görülmüş işlər barədə iştirakçılara məlumat veriblər.

Qeyd edək ki, tədbirdə Azərbaycanla yanaşı, Aİ Şərq Tərəfdaşlığının digər üzv dövlətləri – Gürcüstan, Moldova, Ukrayna, Belarus, Fransa, Almaniya, Estoniya, Litva, Latviya, Finlandiya, Rumıniya, Polşa, Çex Respublikası və başqa dövlətlərin, eləcə də QHT və bir sıra beynəlxalq təşkilatların nümayəndələri iştirak edib.

# Mobil ofislər vasitəsilə 250-yə yaxın vətəndaşa xidmət göstərilib

**Əmlak Məsələləri Dövlət Komitəsi aprel ayının əvvəlindən başlayaraq xüsusi təbəqədən olan insanlara mobil ofislər vasitəsilə ünvanlarda daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmətlər göstərir.**

Əlilliyi olan, ahıl, sağlamlıq imkanları məhdud insanlar, o cümlədən yaşayış yeri uzaqda yerləşən, müxtəlif səbəblərdən hərəkət çətinliyi olan vətəndaşlar ərazi qeydiyyat idarələrindən kənarda təşkil edilmiş mobil ofislərdə (xüsusi nəqliyyat vasitələrində) göstərilən qeydiyyat xidmətlərindən faydalanırlar.

Müraciətlər əsasında indiyədək Bakı, Sumqayıt, Gəncə və Yevlax şəhərləri, Şəmkir, Göygöl, Daşkəsən, Samux, Gədəbəy rayonlarında, həmçinin bu şəhər və rayonların mərkəzdən uzaq kənd və qəsəbələrində mobil ofislər vasitəsilə 250-yə yaxın vətəndaşa qeydiyyat xidmətləri göstərilib. Bu xidmətlər fərdi həyət evi, mənzillər, bağ evlərinin, torpaq sahələrinin, qeyri-yaşayış obyektlərinin ilkin və təkrar qeydiyyatı, daşınmaz əmlaka dair plan-sxemin, texniki pasportların tərtibi, daşınmaz əmlakın yüklülüyünə dair arayışların verilməsindən ibarət olub. Eyni zamanda, mobil ofislərdə xidmətlər zamanı təqdim olunan sənədlərin qanunauyğunluğu yerindəcə yoxlanılıb, qəbul edilib, növbəti prosedurlar ətraflı izah edilib və daşınmaz əmlakın qeydiyyatı ilə bağlı vətəndaşlara zəruri hüquqi məsləhətlər verilib.

May ayında növbəti belə xidmətlər Mingəçevir şəhəri, Ağdaş, Qax, Balakən, Ağstafa, Qazax, Göyçay, Kürdəmir, Zərdab, Salyan, Sabirabad rayonlarında təşkil ediləcəkdir. Ünvanlarda mobil ofislər vasitəsilə qeydiyyat xidmətlərinin təşkilində məqsəd qeydiyyat xidmətlərinin vətəndaşlara daha rahat və əlverişli üsullarla çatdırılması, daşınmaz əmlakın qeydiyyatı sahəsində sosial məmnunluğun təmin olunmasıdır.

www.e-gov.az

## 01.04.2014 – 30.04.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 55889 |
| 2 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 11596 |
| 3 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 7116 |
| 4 | Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı | Dövlət Sosial Müdafiə Fondu | 4240 |
| 5 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3444 |
| 6 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 1887 |
| 7 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1676 |
| 8 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1541 |
| 9 | Vətəndaşın fərdi məlumatları barədə arayış | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 770 |
| 10 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 763 |
| 11 | E-İmza - Operator üçün menyu | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 725 |
| 12 | FİN-ə görə fərdi məlumatların axtarışı | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 662 |
| 13 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 612 |
| 14 | Vergilər Nazirliyinin xidmətləri | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 596 |
| 15 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 479 |
| 16 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 467 |
| 17 | Cari ay ərzində aparılmış şəhərlərarası və beynəlxalq danışıqlar üzrə məlumat | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 376 |
| 18 | VÖEN-ə görə ödəyicinin axtarılması | Vergilər Nazirliyi | 374 |
| 19 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 369 |
| 20 | Portal üzərindən verilmiş arayışların yoxlanılması | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 336 |

## 01.05.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 53 | 135 | 188 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.04.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 12798 | 808 | 5098 | 18704 |

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.05.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 36 | 44 | 48 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 1 | 0 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 30 | 30 | 26 | 25 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 10 | 28 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 2 | 5 | 15 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 15 | 14 | 17 | 18 | 14 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 5 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 14 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 8 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 9 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 46 | "Elektron hökumət" portalı | | | 2 | | |
| 47 | Baş Prokurorluq | | | 1 | | |
| | **CƏMİ:** | **428** | **253** | **327** | **453** | **357** |

www.e-gov.az

## 2014-cü ilin aprel ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 12 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 3 | 6 |
| 3 | Energetika Nazirliyi | 3 | 7 |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 2 |
| 5 | Xarici İşlər Nazirliyi | 1 | 1 |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 14 |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 4 | 9 |
| 8 | Dövlət Gömrük Komitəsi | 4 | 187 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 10 | 29638 |
| 10 | Dövlət Statistika Komitəsi | 2 | 10 |
| 11 | Vergilər Nazirliyi | 9 | 971 |
| 12 | Ədliyyə Nazirliyi | 7 | 1153 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 1 | 13 |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 3 | 6 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 16 | Səhiyyə Nazirliyi | 20 | 466 |
| 17 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 18 | Diasporla İş Üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | - | - |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 7 | 116 |
| 21 | Dövlət Dəniz Administrasiyası | 1 | 3 |
| 22 | Təhsil Nazirliyi | 3 | 693 |
| 23 | Gənclər və İdman Nazirliyi | 4 | 4 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 17 | 3537 |
| 25 | İqtisadiyyat və Sənaye Nazirliyi | 1 | 1 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | 3 | 3 |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 3 | 421 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 1 | 2 |
| 29 | Daxili İşlər Nazirliyi | 2 | 647 |
| 30 | Dövlət Sərhəd Xidməti | - | - |
| 31 | Müəllif Hüquqları Agentliyi | 1 | 2 |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 263 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 143 |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 35 | "AzərEnerji" ASC | 1 | 13 |
| 36 | "AzərSu" ASC | 1 | 241 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 48 |
| 38 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 34 | 63482 |
| 39 | Xarici İşlər Nazirliyi | - | - |
| 40 | Baş prokurorluq | 1 | 11 |
| **CƏMİ** | | **161** | **102127** |

# elektron imza xidmətləri üçün
# YENİ TARİFLƏR

72 ₼
~~168 ₼~~
SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN **HÜQUQİ** ŞƏXSLƏR ÜÇÜN

36 ₼
~~168 ₼~~
SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN **FİZİKİ** ŞƏXSLƏR ÜÇÜN

ƏHALİ ÜÇÜN
~~30 ₼~~
18 ₼

DÖVLƏT QURUMLARI ÜÇÜN
*qiymətə* ***kart oxuyucusu*** *daxildir*
80 ₼
~~135 ₼~~



Elektron imza xidmətləri üçün yeni tariflər müəyyənləşdirilib. Yeni tariflərə əsasən, elektron imzanın qiyməti əhali üçün 18 manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün 36 manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər üçün 72 manat təyin edilib. Bu tariflərə **3 illik** elektron imza xidmətləri, elektron imza daşıyıcısı olan smart kart və 3 il ərzində vaxt göstəricilərinin qeyd olunması xidmətindən limitsiz istifadə daxildir. Dövlət strukturları üçün elektron imzanın qiyməti isə 80 manat təşkil edir. Bu tarifə elektron imza üçün **3 illik** tam xidmətlərlə yanaşı, kart oxuyucusu (cardreader) da daxildir.

© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az